# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 92** **Bakı şəhəri, 27 mart 2023-cü il**

***“Hərbi Ovçuluq İttifaqı” Məhdud Məsuliyyətli Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 13 fevral tarixli 44 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Hərbi Ovçuluq İttifaqı” Məhdud Məsuliyyətli Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 13 fevral tarixli 44 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 199; 2016, № 3, maddə 582; 2017, № 9, maddə 1757; 2019, № 3, maddə 562, № 4, maddə 756, № 5, maddə 952; 2020, № 5, maddə 653; 2022, № 2, maddə 186) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Preambulada “Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin” sözləri “Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin” sözləri ilə əvəz edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə – “Hərbi Ovçuluq İttifaqı” Məhdud Məsuliyyətli Cəmiyyətinin Nizamnaməsi” üzrə:

2.1. 1.1-ci, 1.4-cü, 2.3-cü, 4.9-cu, 5.4-cü, 6.5-ci, 8.2-ci bəndlərdə, 11.2.1-ci və 11.2.2-ci yarımbəndlərdə “Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin” sözləri “Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin” sözləri ilə əvəz edilsin;

2.2. 8.3.9-cu yarımbənddə “Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinə” sözləri “Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinə” sözləri ilə əvəz edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

Xalq qəzeti.- 2023.- 29 mart.- S.6.